# "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və İtaliya Respublikasının Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Siyasəti Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq olunması barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2006-cı il oktyabrın 20-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və İtaliya Respublikasının Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Siyasəti Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 noyabr 2006-cı il
№ 1777

**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və İtaliya Respublikasının Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Siyasəti Nazirliyi arasında əməkdaşlıq haqqında**

## ANLAŞMA MEMORANDUMU

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və İtaliya Respublikasının Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Siyasəti Nazirliyi, kənd təsərrüfatı sahəsində iqtisadi və elmi-texniki əlaqələrin, habelə aqrar-sənaye sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə aşağıdakılar barədə razılığa gəldilər:

### Maddə 1

Tərəflər səmərəli əməkdaşlığa nail olmaq üçün aşağıda göstərilmiş istiqamətlərdə birgə fəaliyyət göstərəcəklər:

a) bitkiçilik sahəsində toxumçuluq, yeni tarla, tərəvəz və meyvə bitkiləri sortlarının mübadiləsi;

b) heyvandarlıqda süni mayalandırma, damazlıq və seleksiya işlərinin aparılması sahələrində əməkdaşlıq;

c) kənd təsərrüfatında aqroservislərin yaradılmasına kömək göstərilməsi;

d) kənd təsərrüfatı məhsullarının müasir texnologiya ilə istehsalı və emalı, marketinqi, eləcə də infrastruktur sahələrinə investisiya qoyuluşu, bu sahələrdə mövcud müəssisələrin fəaliyyətinin genişləndirilməsi və yeni birgə müəssisələrin yaradılmasına kömək göstərilməsi;

e) mineral gübrələr və bitki mühafizəsi vasitələrinin, həmçinin baytarlıq preparatlarının istehsalı sahəsində əməkdaşlıq;

f) ekoloji təmiz kənd təsərrüfatı məhsulları (meyvə-tərəvəz və bostan bitkiləri) istehsalı üzrə aqrokimyəvi tədbirlərin aparılması sahəsində təcrübə mübadiləsi;

g) kənd təsərrüfatı sahəsində elmi əlaqələrin genişləndirilməsi və bu istiqamətdə təcrübə mübadiləsi;

h) kənd təsərrüfatının müxtəlif sahələrinə həsr edilmiş simpozium, seminar, videokonfrans vasitəsilə həyata keçirilən konfranslar, sərgi və yarmarkaların təşkil edilməsi;

i) beynəlxalq standartlar, texnologiyalar və elmi-texniki yeniliklər barədə məlumat mübadiləsi;

j) bitkiçilik və heyvandarlıqda genetik və bioloji materiallar mübadiləsi;

k) təbii və qarışıq yem istehsalının inkişaf etdirilməsi sahəsində əməkdaşlıq;

l) yeni iqtisadi münasibətlər şəraitində kənd təsərrüfatı sahəsində elmi-tədqiqat və islahatların aparılması işlərinin əlaqələndirilməsi, məlumat və təcrübə mübadiləsi;

m) bitkiçilik sahəsində ziyanvericilərə və xəstəliklərə qarşı mübarizə, eləcə də baytarlıq tədbirlərinin həyata keçirilməsi;

n) aqrar sahənin prioritet problemlərinin həlli üçün birgə layihələrin hazırlanması və həyata keçirilməsi;

o) suvarmanın səmərəli üsullarından istifadə və bu üsulların tətbiqi sahəsində əməkdaşlıq.

Maddə 2

Bu Anlaşma Memorandumunda nəzərdə tutulan Əməkdaşlıq Tərəflərin öz səlahiyyətləri çərçivəsində milli qanunvericiliyinə və beynəlxalq öhdəliklərinə uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 3

Tərəflər mövcud problemlərin həlli üçün məsləhətləşmələr keçirəcəklər.

Məsləhətləşmələrin keçirildiyi yer, tarix, gündəliyi, habelə xərclərin ödənilməsi qaydası qarşılıqlı razılıq əsasında müəyyənləşdiriləcəkdir və bu Anlaşma Memorandumunda nəzərdə tutulan fəaliyyətlər onun Tərəflərinin hesabına həyata keçiriləcəkdir.

Məsləhətləşmələr nəticəsində razılıq əldə edilməzsə, mübahisəli məsələlər diplomatik kanallar vasitəsilə həll ediləcəkdir.

Maddə 4

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Memoranduma dəyişiklik və əlavələr edilə bilər. Həmin dəyişiklik və əlavələr Memorandumun ayrılmaz tərkib hissəsi olan ayrıca

Protokollarla tərtib ediləcək və 5-ci maddədə nəzərdə tutulmuş prosedurlara uyğun olaraq qüvvəyə minəcəkdir.

Maddə 5

Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu beş il müddətinə bağlanılır və Tərəflərdən biri həmin müddətin başa çatmasına ən azı altı ay qalmış, diplomatik kanallar vasitəsilə onun qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfi məlumatlandırmazsa, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 2006-cı il oktyabrın 20-də iki əsl nüsxədə Azərbaycan, italyan və ingilis dillərində imzalanmışdır və bütün mətnlər eyni dərəcədə autentikdir. Bu Memorandumun təfsiri zamanı fikir ayrılığı yaradıldıqda ingilis dilində olan mətn əsas götürülür.

**Azərbaycan Respublikasının**
**Kənd Təsərrüfatı Nazirliyi**

**adından**

*(imza)*

**İtaliya Respublikasının**
**Kənd Təsərrüfatı,**
**Ərzaq və Meşəçilik Siyasəti**
**Nazirliyi**
**adından**

*(imza)*